# «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«İnformasiya

, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının icrası qaydasında təqdim etdiyi təklifləri nəzərə alaraq 3 ay müddətində:

- Elektron imza haqqında Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydası haqqında Əsasnaməni təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- İnformasiya ehtiyatlarının və ya onların müəyyən hissələrinin milli informasiya ehtiyatları elan edilməsi və onların milli sərvət kimi mühafizə edilməsi haqqında Qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş informasiya ehtiyatlarından istifadə edənlərə haqq ödənilmədən və ya xidmətlərə çəkilən xərcləri qismən ödəməklə təqdim olunan informasiya xidmətlərinin siyahısını təsdiq etsin;
- həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsinin müddəalarını nəzərə alaraq informasiyalaşdırmanın aparıcı istiqamətlərini müəyyən edən konsepsiyanı hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 4 iyul 2001-ci il***

***№ 520***

***«Azərbaycan» qəzetində dərc olunmuşdur (10 iyul 2001-ci il, № 153) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 iyul 2001-ci il, № 7, maddə 457) («VneshExpertService» LLC).***

***12 sentyabr 2008-ci il tarixli, 826 nömrəli Fərmana əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***